

Güləmail
Murad

# Lələ təpə zirvəsi

**Heç vaxt belə olmamışam, qəribə bir ovqatla evdən çıxıram. Axşam televiziyadan eşitdiyim xəbərlər həm ürəyimə sevinc bəxş edir, həm də bərk sıxır. Lələ təpə və Talış kəndini Milli ordumuz yağılardan təmizləyib. Şəhidlərimiz də var.**

Yol gedə - gedə düşünürəm. Bu gün dünyamız çox narahatdır, əsəbidir. Şeiri də narahatdır, şairi də. Qələm qan ağlayır. Dərdləri yazmağa ürəyi gəlmir, amma hər dərdin başında qələbə var.

*Şəhid xəbərləri hər axşam, səhər,*
*Yaralı qəlbimi hey döyüb əzər.*
*Şəhidin ağrısı canımda gəzər,*
*Sinəmdə hər şəhid bir tarix yazar.*

Bu gün Qərb dünyasının , Avropa aləminin siyastlə masqalanmış bəzi qüvvələri əllərini Şərqə heç də xeyirliyə uzatmırlar. Ancaq ayrı seçkilik, parçalamaq, insanları üz -üzə qoymaq və s. oyunlar hələ də davam edir. Bu qüvvələr Türkiyəyə əl uzadırlar, "İslam fundamentalizmi" adı altında İslamı dəyərdən salırlar.

Amma nə olsun, çox sevincliyəm, Lələ təpə bu saat mənim şah vüqarımdır.

Dünyanın narahatlığı gəlib bizdən də keçir, poeziyamızada da öz əksini tapır. Bu təzadlı dünya yeni bir dünya yaradır. Ölümdən - qandan keçir, neçə-neçə igidlər, dinc insanlar işğalçıların tapdağı altında dünyasını dəyişir. Bu elə dünyadır ki, süngü ilə yazılır, mərmi ilə əks səda salır.

Yol gedirəm, dərsə gedirəm. Elə tələbələrə ilk dərsim Lələ təpədən olacaq. Ürəyimdə misralarım dinc dayanmır.

*Gülüşlər gözlərdə donur,*
*Qəm oynayır, fəğan çəkib,*
*Ana ağlayır, dil ağlayır.*
*Necə yazım axı bu şeiri mən?*
*Qələmimin qanı donur,*
*Göynəyir ürəyimin havalı sazı*
*sim ağlayır, tel ağlayır.*
*Hələ nişanlanmamış*
*gör neçə qız ağlayır.*
*Batmaz igidlərin haq səsi,*
*misraya çevrilib*
*şeirə köçər hər nəfəsi.*
*Vətən deyən hər kəsi*
*İnanın, vallah el ağlayar.*

Axır ki, Kolecə çatdım, içəri daxil oluram. Həmişə mənimlə gülərüz görüşən Validə müəllimə ağlayırdı.Təəccübləndim, buna nə olmuşdur ki, belə hönkürür? Mən anlaşılmazlıq içində ikən Kollecin direktor müavini Şahnisə Əhmədova da bizə yaxınlaşır:

- Mən də ona dərs demişəm, çox qürurlu idi Təbriz! O, elə vətən üçün doğulmuşdu, canını həmişə elə-obaya, torpağa qurban verməyə hazır idi. Bax indi tələbələrmiz Təbrizlə qürur duyur.

Çaş-baş qalmışdım, bunlar nə danışır?

Xeyli keçəndən sonra anladım ki, Təbriz bizim Neft-Energetka Kollecinin 171 saylı qrupun məzunu imiş. Lələ təpə uğrunda gedən döyüşlərdə şəhid olub. Evdən çıxandan Lələ təpə haqqında düşünürəm. Deməк, Təbrizin ölümü mənə əyan olubmuş.

Bir təhər özümü ələ alıb 133 saylı qrupa dərsə getdim. Tələbələr də kövrəlmişdi. Hönkürüb ağlayanlar da var. Bir dəqiqəlik sükutla Təbrizin ruhunu yad etdik. Tələbəm Həmidxan Hacəliyev dedi:

- Müəllim, o Ələt qəsəbəsində bizimlə qonşudu. Mənə Kollecin yollarını Təbriz tanıdıb. O, Ağdam rayonunun Çəmənli kəndində gedən döyüşlərdə qəhramancasına şəhid olub.

Sonra tələbəm dərin sukuta qərq oldu. O danışmırdı. Amma onun səsini mən eşidirdim: "Dediyim sözlərə özüm də inana bilmirəm. Axı o erməni gülləsinə tuş gələ bilməz... Bu necə ola bilər? İçimdə elə bir təlatümlü hiss var ki, bilmirəm kədərlənim, yoxsa sevinim...Onu deyə bilərəm ki, biz bütün tələbələr Təbrizlə fəxr edirik ki, Kollecimizin belə bir qəhraman oğlu var. İndi bütün qəsəbəmiz ağlayır, həm sevinir. Qəsəbəmizin hər tərəfində Azərbaycan bayrağı dalğalanır".

Bu an qapı döyüldü Kollecin şöbə müdiri Səbinə xanım gözü yaşlı otağa daxil olub dedi:

- Güləmail müəllimə, Kollecmizin direktoru M.M.Abdüləzizovun təşəbbüsü ilə biz mütləq Ələt qəsəbəsinə gedib, onun doğmaları ilə öz hisslərimizi bölüşməliyik. Şəhidlərmizin ölümü bizi kədərləndirsə də, biz onların ölümü ilə qürur duyuruq. Təbrizin bu gün şəhidlik zirvəsinə yüksəlməsində bizim də əməyimiz var.

Səhərisi gün Kollecin müəllimləri ilə birlikdə Ələt qəsəbəsinə yollandıq.

Qəsəbəyə daxil olarkən Qəsəbənin hər tərəfində Azərbaycan bayrağı asılmışdı. Sanki, bayraq Təbrizi qələbəyə yenə də Lələ təpə yüksəkliyinə çağırırdı.

Bizi ailə üzvləri: anası Vəsilə xanım, nənələri, qohum-əqraba və qəsəbənin camaatı qarşıladı.

Hər kəs Təbrizə layla-bayatı deyib oxşasa da, ölmünə heç kəs inanmırdı. Anası Vəsilə xanım hönkürə-hönkürə deyirdi:

- Axı o, mənə hər gün zəng edirdi. Aprel ayının 2- də yenə mənə zəng elədi. Sevincinin həddi-hüdudu yox idi. Ana televizoru aç, bizi göstərirlər. Bax indi biz Lələ təpə yüksəkliyindəyik. Bayrağı yüksəkliyə sancanlardan biri də mənəm, bax gör Azərbaycan bayrağını əlimdə necə tutmuşam, Ana!..

Vəsilə xanım bu sözləri deyərkən qəlbimdə vaxtı ilə yazdığım, "Azərbaycan bayrağı" şeirinin misraları səslənir. Elə bilirəm bu şeiri Təbriz Lələ təpə yüksəkliyindən deyir:

*Fəxir, qürur, ehtişam,*
*Güvənc, ehtiram, inam,*
*Kömək , həyan bayrağı-*
*Azərbaycan bayrağı!*

*Tanınmısan qədimdən!*
*Mətin ölkə, mərd vətən,*
*Odlu məkan bayrağı-*
*Azərbaycan bayrağı!*

*Artsın şanın, şöhrətin,*
*Bu qoca məmləkətin,*
*Sən ey cavan bayrağı-*
*Azərbaycan bayrağı!*

*Qəlbimin təpəridir,*
*Xalqa ümid yeridir,*
*Elə güman bayrağı-*
*Azərbaycan bayrağı!*

*Dözümü var, gücü var,*
*Yıxılmaz, şax dayanar,*
*Varsa tutan bayrağı-*
*Azərbaycan bayrağı!*



Siz heç narahat olmayın, tez bir zamanda bütün işğal olunmuş torpaqlarmızı alacağıq və bayrağmız Qarabağda, Şuşada, Xankəndində, Laçında... dalğalanacaq Ana!

Vəsilə xanımın ürək parçalayan sözləri məni Təbrizin dediklərindən ayırır.

- Axı bu sözləri Təbriz gülə-gülə, sevinə-sevinə deyirdi. Axı mənim oğlum necə ölə bilər?

Vəsilə xanım xeyli içində öz -üzüylə danışdıqdan sonra qəflətən başını qaldırır.

- Onunla bir qrupda oxuyan, dəli kimi sevdiyi qız var: Fidan.

- Yenə xəyalım məni Vəsilə xanımın sözlərindən ayırdı, uzaq, nakam bir sevginin yanına çəkib apardı.

*Hələ əsgər gedəndə*
*Ürəyini açmışdı o, Fidana*
*Çiçəklər açan kimi,*
*Şəkil də çəkdirmişdi*
*Üz-üzə, göz-gözə, əlləri əlində.*
*Əllərinin istisini*
*ovcunda gizləyib aparmışdı.*
*İstisinə qızınmaq üçün.*
*Baxışlarını aparmışdı*
*gözlərində gecələsin deyə.*
*Üzündə nəfəsini aparmışdı,*
*bütün xətalardan qorusun.*
*Unutmasın məni, o sevən ürək.*

Vəsilə xanım ağlaya - ağlaya deyirdi:

- Onu gözləyirdim ki, gəlib gözü yolda qalmış sevgisinə qovuşacaq, nişan taxıb toy edəcəkdim.Vay...vay...deyəsən, Təbrizmin sevgisi nakam, xonçası bağlı qaldı...

Vəsilə xanımın dedikləri qəlbimdə misralara çevrilirdi.

*Sinəmdədi dərdim açın -arayın*
*Ürəyində qaldı ülvi arzular.*
*İçimdə hönkürür şəhid harayı,*
*İndi, oğul nisgili ilə keçən günüm,*
*Söyləyir görmədin,*
*oğlun Təbrizin toyun.*
*Yandırın sinəmin göynəyin*
*yarasına basın,*
*Alnındakı qanını*
*gözümün qarasına basın,*
*Üfüqləri qızardan Təbrizin qanı,*
*Göyləri şəhid edən*
*mən ananın ahı!*

Kollecin müəllimləri onun haqqında ağız dolusu danışırdılar. Deyilənlərdən aydın olurdu ki, vətən yolunda sinəsini sipərə çevirən, vətənimizin keşiyində duran, torpağı üçün şəhid olmağı bacaran, zirvədən - zirvəyə (Lələli təpə zirvəsindən şəhidlik zirvəsinə) ucalan Həsənov Təbriz Bəxtiyar oğlu 27.01.1966-cı il tarixdə Hacıqabul rayonunun Qızılbucun kəndində anadan olmuşdur.

2002-ci il sentyabrın biri Qaradağ rayonu Ələt qəsəbəsindəki Seyfulla Məmmədov adına 110 saylı tam orta məktəbin bitirdikdən sonra 2011-ci ildə Bakı Dövlət Neft-Energetika Kollecinə daxil olmuşdur.

2015-ci il tarixində Kolleci bitirmiş və həmin il iyulun birində hərbi xidmətə çağrılmışdır.

Ağdam istiqamətində gedən döyüşlərdə qəhramanlıqlar göstərmiş, Lələ təpə yüksəkliyində Azərbaycan bayrağını sancmağa nail olmuşdur.

Bu çox böyük bir uğur idi. Torpaqlarmızın geri alınmasında şəhid olan Təbriz də Ləlәli (Laləli) təpəm deyə - deyə Azərbaycan bayrağını-qələbə bayrağını həmin təpə üzərinə sancmışdı. Qələbə bayrağımız deyə qürurlanıb, sevinmişdi.

Geri- şəhərə qayıdırıq. Ürəyim qururla dolur. Qəlbimindən süzülüb gələn şeirimi Təbrizin şəhid ruhuna bağışlayıram.

### LALƏLİ (LƏLƏ) TƏPƏ

Aprel döyüşlərində qazandığımız qələbə münasibəti ilə

*Ey düşmən, vardı ah, nalə özümdə,*
*Laləli təpəni aldı Əsgərim!*
*Nalə səndə qaldı, Lalə özümdə*
*Laləli təpəni aldı Əsgərim!*

*Canımda, qanımda nisgil azaldı,*
*Əsgərim döyüşüb qələbə çaldı,*
*Lalə mənə qaldı, gül mənə qaldı*
*Laləli təpəni aldı Əsgərim!*

*Unutmasın düşmən, yağı, alarıq,*
*Gülşəni alarıq, bağı alarıq.*
*Təpəmizi aldıq, dağı alarıq,*
*Laləli təpəni aldı Əsgərim!*

*Gün gələr, yetişər zəfər çağı da,*
*İgid Əsgər gərək Ləşkər dağıda,*
*İnşallah alarıq Qarabağı da,*
*Laləli təpəni aldı Əsgərim!*